**“Daşınmaz əmlakın dövlət reyestri haqqında ? Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə**

AZ ?RBAYCAN RESPUBLİKASININ QANUNU

Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 11-ci və 13-cü bəndini rəhbər tutaraq Azərbaycan Respublikasının Milli Məclisi **qərara alır:**

“Daşınmaz əmlakın dövlət reyestri haqqında ? Azərbaycan Respublikasının Qanununda (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2004, 8, maddə 603; 2006, 6, maddə 482; 2007, 8, maddə 745; 2008, 3, maddə 154; 2009, 12, maddə 948; 2011, 11, maddə 983; 2012, 6, maddə 509, 7, maddə 688, 11, maddə 1053; 2013, 6, maddələr 607 və 623, 7, maddə 791, 12, maddə 1484; Azərbaycan Respublikasının 2013-cü il 27 dekabr tarixli 880-IVQD Qanunu) aşağıdakı dəyişikliklər edilsin:

1. 5-ci maddə üzrə:

1.1. 5.4-cü maddəyə aşağıdakı məzmunda ikinci cümlə əlavə edilsin:

“Sorğunun və bildirişin formaları müvafiq icra hakimiyyəti orqanı tərəfindən müəyyən edilir. ?;

1.2. aşağıdakı məzmunda 5.7-ci maddə əlavə edilsin:

“5.7. Dövlət reyestrindən arayışların və onun əldə edilməsi üçün ərizələrin formaları müvafiq icra hakimiyyəti orqanı tərəfindən müəyyən edilir. ?.

2. 10-cu maddə üzrə:

2.1. 10.1-ci maddəyə aşağıdakı məzmunda üçüncü cümlə əlavə edilsin:

“ ?rizənin forması müvafiq icra hakimiyyəti orqanı tərəfindən müəyyən edilir. ?;

2.2. aşağıdakı məzmunda 10.4-cü maddə əlavə edilsin:

“10.4. Hüquqların dövlət qeydiyyatı üçün sənədlərin qəbulu, yoxlanılması və verilməsinin prosedur qaydaları müvafiq icra hakimiyyəti orqanı tərəfindən müəyyən edilir. ?.

3. 14-cü maddə üzrə:

3.1. 14.2-ci maddəyə aşağıdakı məzmunda dördüncü cümlə əlavə edilsin:

“Sorğuların forması müvafiq icra hakimiyyəti orqanı tərəfindən müəyyən edilir. ?;

3.2. 14.3-cü maddəyə aşağıdakı məzmunda dördüncü cümlə əlavə edilsin:

“ ?rizənin forması müvafiq icra hakimiyyəti orqanı tərəfindən müəyyən edilir. ?.

4. 15.2-ci maddəyə aşağıdakı məzmunda ikinci cümlə əlavə edilsin:

“Bildirişin forması müvafiq icra hakimiyyəti orqanı tərəfindən müəyyən edilir. ?;

5. 16-cı maddə üzrə:

5.1. 16.1-ci maddənin ikinci cümləsində “yazılı məlumat ? sözləri “bildiriş ? sözü ilə əvəz edilsin;

5.2. aşağıdakı məzmunda 16.1-1-ci maddə əlavə edilsin:

“16.1-1. Bu Qanunun 16.1-ci maddəsində nəzərdə tutulmuş ərizə və bildirişin formaları müvafiq icra hakimiyyəti orqanı tərəfindən müəyyən edilir. ?.

6. 18.2-ci maddəyə aşağıdakı məzmunda ikinci cümlə əlavə edilsin:

“ ?rizənin forması müvafiq icra hakimiyyəti orqanı tərəfindən müəyyən edilir. ?.

7. 19.1-ci maddəyə aşağıdakı məzmunda dördüncü cümlə əlavə edilsin:

“ ?rizənin və müraciətin formaları müvafiq icra hakimiyyəti orqanı tərəfindən müəyyən edilir. ?.

8. Aşağıdakı məzmunda 20.6-cı maddə əlavə edilsin:

“20.6. İpotekanın dövlət qeydiyyatına alınması, ipotekanın dövlət qeydiyyatının ləğvi barədə ərizələrin və ipoteka predmetinə tutmanın yönəldilməsi barədə bildirişin formaları müvafiq icra hakimiyyəti orqanı tərəfindən müəyyən edilir. ?.

**İlham ?LİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, 4 aprel 2014-cü il
937-IVQD